# XIX ƏSR RUS STATİSTİKASINDA AZƏRBAYCANIN ETNODEMOQRAFİK DURUMUNA DAİR BƏZİ DOLAŞIQLIQLAR HAQQINDA

A.N.MUSTAFAYEV

Azərbaycan əhalisinin, o cümlədən onun ayrı-ayrı bölgələrinin XIX əsrdəki etnik tərkibi və say nisbəti barədə statistik məlumat olduqca azdır. Ümumən inqilabdan əvvəl ölkədə yerli statistika təcrübəsinin bərbad halda olması üzündən əhali sayımları barədə məlumat demək olar ki, yox dərəcəsində idi. Xanlıqlar və ondan əvvəlki tarixi dövrlərin «icmal» və ya «müfəssəl» adlanan haqq-hesab dəftərlərinin çoxu zəmanəmizədək gəlib çatmamışdır. Dövrümüzədək çatan müfəssəl dəftərlərdəki pərakəndə səciyyəli statistik məlumatlar isə dövlət xəzinəsinin nəfinə toplanan töycü və vergilərin məbləğini hesablamaq məqsədi güddüyündən kənd və mahallar üzrə əhalinin vergi ödəyən qisminin sayını təsbit etməkdən irəli gedə bilməmişdir (1). Özlüyündə vergi-maliyyə hesablaması səciyyəsi daşıyan bu xırda məmur məlumatlarında bu və ya digər inzibati ərazidə əhalinin ümumi sayının hesablanması bir yana dursun, heç vergi ödəyən, bu səbəbdən də vergi vahidləri ödəməyən yaşlı sakinlərin etnik mənsubiyyəti barədə doğru-dürüst bir statistik məlumat əldə etmək mümkün deyildir. Rusiya tərəfindən işğal olunana qədər Azərbaycanda statistik hesablama əməliyyatlarının ümumi durumu bu cür acınacaqlı vəziyyətdə olmuşdur.

İşğal ərəfəsində və ondan sonrakı inzibati-idarəçilik dövründə əhali sayımına, o cümlədən onun etik durumuna dair məlumatların toplanması sahəsində ciddi dönüş yarandığı müşahidə olunur. Bununla belə, müfəssəllik səciyyəsinə və etnik göstəriciləri əks etdirmə səviyyəsinə görə rusdilli mənbələrdəki statistik məlumatlar da bir-birindən xeyli dərəcədə fərqlənirdi. Bu cəhətdən işğal ərəfəsində və onun başa çatmasının ilk mərhələsində ayrı-ayrı müəlliflər tərəfindən aparılmış etnoqrafik, hərbi, coğrafi, topoqrafik, maliyyə-ticarət **təsvirləri** (2) ilə, Azərbaycanın siyasi işğalı başa çatandan sonra həyata keçirilən və rəsmi səciyyə daşıyan **kameral təsvirlər** arasında xeyli fərq müşahidə olunur.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə ilk qısa kameral təsvir Gəncə xanlığına həsr olunmuşdur (3). İşğalın sonrakı mərhələlərində xanlıqlar ləğv edilib Rusiyaya birləşdirildikcə statistik səciyyə daşıyan bu sayaq məhəlli «təsvir»lər Azərbaycanın digər əyalətlərində də həyata keçirilmişdir (4).

Qeyd etmək lazımdır ki, XVIII əsrin əvvəllərindən başlanan fərdi «təsvirlər» sonralar da davam etdirilmişdir (5). Bu cəhətdən «Qafqaz» qəze-

ti (1846-1917), «Qafqaz təqvimi»(1845-1916), Rusiya Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin xəbərləri (1852-1926), «Qafqaz dağlıları haqqında statistik məlumat» məcmuələrində (1868-1881), «Qafqaz məskənləri və tayfalarını təsvir etmək üçün materiallar məcmuəsi»(1881-1929), «Zaqatala dövlət kəndlilərinin iqtisadi məişətini öyrənmək üçün materiallar» (1885-1887) və «Materiallar məcmuəsi» (1887-1888) və digər dövri nəşrlərdə Azərbaycan əhalisinə dair xeyli təsvir və statistik məlumat dərc olunmuşdur. Bu nəşrlərdə Azərbaycanın müsəlman məsləkli etnik subyektlərinin heç də hamısı tam və dürüst təsbit edilməmişdir. Buna baxmayaraq, ozamankı rusdilli statistik məxəzlər arasında **kameral təsvirlər** yeganə mötəbər rəsmi mənbə bazası olmaq etibarı ilə xüsusi yer tutur.

Bütün müsbət məziyyətlərinə baxmayaraq, işğalın ilk çağlarında həyata keçirilən və müsəlman əhalisinin sayı barədə bəsit statistik təsəvvür əldə etməyə imkan verən ilk kameral təsvirlərdə ölkəmizin etnik durumunun ümumi mənzərəsini tamamlayan azsaylı xalq və etnik qruplar çox vaxt rus məmurları tərəfindən nəzərə alınmamış, onların yalnız konfessional (etiqad) mənsubiyyətinə diqqət yetirilmişdir. Məhz bu səbəbdən də, Azərbaycan ərazisində, yaxud onun bu və ya digər əyalətində tarixən məskunlaşmış müsəlman xalqların hamısı etnik mənsubiyyətindən asılı olmayaraq, ümumilikdə «Müsəlman», yaxud «Məhəmmədi» adı altında təqsim və təqdim olmuşdur. Ozamankı rus məmurları Azərbaycanın müsəlman əhalisi arasında nifaq salmaq, münaqişələr yaratmaq və beləliklə də işğala qarşı yerli əhalinin kin-küdurətini səngidib boğmaq niyyəti ilə statistik əməliyyatlarda çarizm üçün çox vacib olan təriqət fərqlərini qabartmağa, onları **sünnü** və **şiə** məzhəbli qruplara bölüb təsbit etməyə çalışmışlar.

Bununla belə, çarizmə sərfəli əməli məqsədlər güdən və qatı müstəmləkəçilik üsul-idarə sisteminin mahiyyətindən irəli gələn bütün naqis cəhətlərinə baxmayaraq,ilk kameral təsvirlər zamanı əhali sayımına dair əldə olunan statistik təcrübə sonralar tədricən təkmilləşmiş,qismən də olsa, bir sıra digər göstəricilərlə, o cümlədən etnik təqsimlənmə ünsürləri ilə tamamlanmışdır. Bunu 1859, 1871, 1873-cü illərin kameral təsvirlərində də müşahidə etmək olur.

Rus işğalı ərəfəsində və işğalın ilk mərhələsində həyata keçirilən müxtəlif səciyyəli «təsvir»lərin, o cümlədən kameral təsvirlərdəki statistik məlumatların kasad və naqis olmasının subyektiv səbəbləri ilə yanaşı, obyektiv səbəbləri də olmuşdur. Bu məsələdə işğal ərəfəsində və onun ilk mərhələsində rus qafqazşünaslığında Azərbaycanın etnoqrafik baxımdan hələ kifayət qədər yaxşı öyrənilməməsi, xüsusilə onun əhalisinin etnik alabəzəkliyinin lazımınca araşdırılmaması faktı mühüm rol oynamışdır.

Azərbaycanın etnocoğrafiyasının uzun müddət elmi əsaslarla tədqiq olunmaması faktı da onun əhalisinin etnik tərkibini və hər bir etnik vahidin yayılma areallarını müfəssəl araşdırmağa imkan verməmişdir. Belə şəraitdə isə nəinki etnodemoqrafik durumdan, ümumən etnik statistikanın mötəbərliyindən söhbət gedə bilməzdi.

Çar məmurlarının həyata keçirdikləri statistik əməliyyatlar zamanı əhalinin etnik tərkibini əks etdirən göstəricilərin deyil, konfessional əlamə-

tin, yəni dini etiqad mənsubiyyətinin əsas tutulması faktı heç də təsadüfi olmayıb, dərin tarixi köklərə malik olan bir məsələdir.

Doğrudur, dini etiqad hər bir etnosun həyatında mühüm əhəmiyyət kəsb edən etnomədəni amillərdən biri sayılır. Bununla belə o, etnosları bir-birindən fərqləndirən əsas göstərici ola bilmir. Eyni bir dinə etiqad edən müxtəlif etnosların mövcudluğu faktı buna əyani nümunədir. Bununla belə, dini alabəzəkliyə malik olan polietnik ölkələrdə əsas etnosdan olmayanlar dini mənsubiyyət üzrə «özgə xalq» sayılmaqla, statistik təcrübədə uzun müddət **xristian** və **qeyri-xristian** kimi təqsimləndirilmişlər. Məhz bu səbəbdən də Rusiya imperiyasının ucqarlarından biri olmaq etibarı ilə Azərbaycan əhalisi XIX əsr rus statistikasında daha çox **xristian** və **müsəlman** qarşıdurması formasında səciyyələndirilərək, onun etnik nomenklaturasının başlıca vahidlərinin seçilib fərqləndirilməsinə məhəl qoyulmamışdır.

Sonralar da davam etdirilən bu sayaq dini təqsimləmə ənənələrinin tarixi kökləri, hər şeydən öncə, Rusiya dövlətinin genişləndirilib imperiyaya çevrilməsi maraqlarından, həmin maraqların reallaşdırılması ilə bağlı olan həyati ehtiyaclardan irəli gəlmişdir. Məlum olduğu kimi, Rusiya dövlətinin Şərqə doğru genişləndirilməsi və isti dənizlərə çıxmaq planlarının gerçəkləşdirilməsi üçün ilk növbədə Qafqaz bərzəxini aşmaq, Zaqafqaziyanı ələ keçirmək tələb olunurdu. Açıq qəsbkarlıq yolunu tutmuş çar Rusiyası hətta Qafqaza doğru işğalçı yürüşlərini dünya ictimaiyyəti və əfkar- ümumiyyə qarşısında ört-basdır edib gizlətmək üçün guya Qafqazda yalnız «xristianlığı və xristian mədəniyyətini bərpa və mühafizə etmək» məramı güddüyünü bəyan etmişdi (6). Belə şəraitdə rus işğalı ərəfəsində ümumən Qafqazda, o cümlədən Cənubi Qafqazda xristian-müsəlman qarşıdurması ön plana çəkilərək, əməli əhəmiyyət kəsb edən aktual bir məsələyə çevrilmişdi. Çar mütləqiyyətinin «pravoslav xristianlığı bərpa və müdafiə» pərdəsi altında gizlədilən məramının əsl mahiyyətini ört-basdır eləmək üçün o zamankı hakim-millətçi rus tarixşünaslığında möhkəm kök salmış zadəgan tarixçiləri (N.Dubrovin, P.Butkov, V.Potto, V.İvanenko, Esadze, İ.Lineviç və b.) Qafqaza rus ekspansiyasını sivilizasiya kimi qələmə verərək (7), bu ideoloji cəfəngiyyatı əsaslandırmağa və beləliklə də, ictimaiyyəti çaşdırmağa çalışmışlar.

Qeyd etmək lazımdır ki, hələ I Pyotr dövründən başlayaraq Qafqazı ələ keçirib ram etməyə çalışan rus mütləqiyyətinin Şərq siyasətində müsəlman etiqadlı Azərbaycanı zəbt etmək planı başlıca yer tutmuşdur.XYIII əsrin ilk rübündə Azərbaycanın Xəzəryanı əyalətlərini işğal etmiş I Pyotr burada Rusiyanın mövqelərini möhkəmlətmək və özünə xristian əhalisindən ibarət etibarlı dayaq yaratmaq niyyətinə düşmüşdür. Bu məqsədlə də o, Xəzəryanı əyalətlərdə müsəlman məzhəbli əhalinin say nisbətini dəyişdirmək üçün Cənubi Qafqazın xristian etiqadlı əhalisindən, ilk növbədə isə buradakı ermənilərin köməyindən istifadə etmək məramı güdmüşdür. Elə bu nityyətlə də o, Qarabağ və Zəngəzur ermənilərini gizli üsyana sövq etməyə çalışmışdır.Qarabağ erməniləri ilə bütün sövdələşmələrə və verdiyi vədlərə baxmayaraq, özünün İran yürüşünü başa çatdırmadan ordunu Dərbənddə qoyub geri dönməyə məcbur olan rus çarı Qarabağın erməni məliklərini

pəjmürdə qoymuşdur. Bununla belə, rus imperatorunun Dərbənddən qayıdışı Qarabağın erməni məliklərinə ciddi mənəvi zərbə olsa da, onlar «xristianlığın xilaskarı» hesab etdikləri I Pyotrun yenə də onlara kömək edəcəyinə ümidlərini tamam üzməmişdilər. Elə buna görə də onlar Böyük Pyotrun hüzuruna yenidən elçilər göndərib ondan kömək diləmişdilər.XYIII əsrin əvvəllərində baş vermiş bu olaylardan bəhs edən görkəmli Azərbaycan etnoqrafı Ə.K Ələkbərov tarixi məxəzlərə istinad edərək yazırdı ki, I Pyotr Qarabağ ermənilərinin elçilərini lütfkarlıqla qəbul edib, onları rütbə və hədiyyələrlə mükafatlandırsa da, lakin o zaman hələ də güclü dövlət olaraq qalmaqda olan Türkiyədən çəkindiyi üçün Qarabağ, Zəngəzur və Qafan dağlarında yuva salıb sığınmış erməni döyüşçü dəstələrinə heç bir real köməklik göstərə bilməmişdir (8).

Bir qədər sonra rus işğalına məruz qalmış Azərbaycanın Xəzəryanı əyalətlərində yeni etnodemoqrafik situasiya yaranmağa başlamışdır. Belə ki, zəbt olunmuş Xəzəryanı əyalətlərdə yerləşdirilmiş rus qoşunları arasında şiddətli isti və namünasib iqlim şəraiti üzündən ağır xəstəlik yayılmağa başlamışdır. Belə şəraitdə I Pyotr vəziyyətdən çıxış yolunu buradakı müsəlman əhalisini, başqa sözlə, azərbaycanlıları köçürdüb yerində xristian erməniləri məskunlaşdırmaqda görmüşdür. Xəzəryanı əyalətlərdə rus ağalığının sabitləşib möhkəmləndirilməsinə xidmət etməli olan bu ideyanı həyata keçirmək üçün o, general Matyuşkinə göndərdiyi məktubunda bildirirdi ki, hər vəchlə çalışmaq lazımdır ki, ermənilər və əgər Gilan və Mazandaranda digər xristianlar varsa, onlar da, buraya dəvət edilsinlər, müsəlmanlar isə olduqca sakit bir tərzdə, hiss etdirilmədən say etibarı ilə mümkün qədər azaldılmış olsunlar (9).

Göründüyü kimi, Xəzəryanı əyalətlərdə yerləşdirilmiş rus qoşunlarının ozamankı acınacaqlı vəziyyəti I Pyotru vadar etmişdir ki, Şərqin içərilərinə doğru irəliləmək üçün əlverişli su və quru yollarına malik olan, bu səbəbdən də mühüm strateji əhəmiyyət kəsb edən Xəzəryanı əyalətləri əlində möhkəm saxlamaq üçün həmin ərazilərdə digər xristian məsləkli əhalini, xüsusilə də erməniləri köçürdüb məskunlaşdırmaq hesabına burada etnodemoqrafik durumu dəyişdirə bilsin. Beləliklə, Rusiyanın dirçəlməsinə və qəsbkarlıq yolunu tutan qüdrətli imperiyaya çevrilməsinə nail olan I Pyotr Cənubi Qafqazdakı ermənilərin müsəlman asılılığından azad olmaq uğrunda «mübarizəsinə» tamam başqa bir çalar verməyə, dini-konfessional don geydirməyə çalışmışdır. Özünə «xristianlığın xilaskarı» obrazı yaratmış imperator çaxnaşmaya saldığı Qafqaz ermənilərinin hərəkatına «xristianların müsəlman əsarətindən xilas olması uğrunda mübarizəsi» yönümü vermək istəmişdir. Bu gizli pərdə altında Rusiya imperiyasının ərazi hüdudlarını müsəlman ölkələri hesabına genişləndirməyə çalışan Böyük Pyotr gerçəkləşdirə bilmədiyi məkrli niyyətlərini özünün «kiçik» xələflərinə miras qoyub getmişdir. Bu missiyanı inamla davam etdirən çar mütləqiyyətinin sonrakı varisləri XIX əsrin ibtidasında Şərqi Zaqafqaziyaya qoşun yeridib Alazan çayını keçəndə də böyük öndərləri I Pyotra məxsus olan «xristianlığın bərpaçısı və xilaskarı» mundirini əyinlərindən çıxarmamışdılar. Məhz bu səbəbdən də təkcə işğalın ilk mərhələsində deyil, ondan sonrakı dövrlərdə də,

uzun müddət əhali demoqrafiyasına dair statistik məlumatlarda dini mənsubiyyət göstəriciləri daima qabardılıb ön plana çəkilmişdir. Ona görə də Şərqi Zaqafqaziya əyalətlərinə dair əhali sayımlarında etnodemoqrafiyanın vacib göstəricilərindən olan etnik mənsubiyyət əlaməti xristian-müsəlman təqsimlənməsi ilə əvəzləndiyindən etnosun nəinki xırda subyektləri etnik və etnoqrafik qruplar, habelə onun böyük subyektləri olan xalq və millət anlayışları çox vaxt nəzərdən qaçırılmışdır.

Rus Qafqazşünaslığında uzun müddət kök salmış, buradan da Azərbaycan Sovet tarixşünaslığına sızıb keçmiş bu naqislik ölkəmizin XIX əsrdəki etnodemoqrafik durumuna qəliz kölgə salmaqla, onun ozamankı etnik mənzərəsini konkret faktik məlumatlar əsasında izləyib aydınlaşdırmağa imkan vermir. Ona görə də bu mübhəm dolaşıqlığa aydınlıq gətirmək, əhalinin o zamankı etnik vahidlərinin say nisbətlərini dəqiqləşdirib müəyyənləşdirmək üçün dolayı materialları, xüsusilə sonrakı dövrlərin sinxron məlumatlarını cəlb edib tutuşdurma yolu ilə etnodemoqrafik durumun gerçək mənzərəsini aşkarlamaq tələb olunur.

## ƏDƏBİYYAT


1. İrəvan əyalətinin icmal dəftəri. B., 1996; Naxçıvan sancaqlığının müfəssəl dəftəri. B., 1997; Dəftəri- müfəssəli- əyaləti-Tiflis və s.
2. И.Г.Гербер. Известия о находящихся на западной стороне Каспийского моря между Астраханью и рекой Курой…1728 г. СПб., 1760. (həmçinin bax: ИГЭД, М., 1958); Ф.И.Соймонов. Описание Каспийского моря и чиненных на нём Российских завоеваниях. - «Ежемесячные сочинения и известия об ученых делах». СПб.,1763; Географическое и статистическое описание Грузии и Кавказа из путешествия академика Гилденштедта… 1770-1773 гг. СПб., 1809; С.Г.Гмелин. Путешествие по России для исследования всех трех царств естества. т.III, СПб,1789; С.Д.Бурнашев. Описание областей азербайджанских и их политического состояния. Курск, 1794; И.Т.Дренякин. Описание Ширвана. 1796 г. – ИГЭД, М.,1958; Ф.Ф. Симонович. Описание Южного Дагестана. 1796 г. – ИГЭД, М., 1958; Засс. Описание Кавказа с кратким историческим и статистическим описанием Грузии. СПб., 1805; Историко-географические записки о странах, лежащих между морями Черным и Каспийским, содержащие новейшие подробные описания живущих в них народах…(перевод с французского). СПб.,1810; С.М. Броневский. Новейшие географические и исторические известия о Кавказе.ч.I-II, М.,1823;
3. Краткое камеральное описание Гянджи с его округом (как части общего камерального описания края) подписанное 2 марта 1804 г. – Акты, собранные Кавказской Археографической Комиссией. т.II, Тиф., 1868, док.1190,с.596-597.
4. Описание Шекинской провинции, составленное в 1819 г., по распоряжению главноуправляющего Грузии Ермолова, генерал-майором Ахвердовым и статским советником Могилевским. Тиф., 1866; Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главнокомандующего Грузии Ермолова, действительным советником Могилевским, и полковником Ермоловым. Тиф., 1866; Описание Ширванской провинции, составленное в 1820 году. Тиф., 1867; Кн. Мадатов. Описание Ширванской провинции, составленное в 1826 году. Тиф., 1866; Провинция Нахичеванская. - «Журнал

МВД», ч. V, СПБ, 1831; Провинция Талышинская. – «Журнал МВД», ч.V, 1831; Гурьев. Путешествие по Казахским и Шамшадильским дистанциям и Елисаветпольским в 1829 г. –«Горный журнал», 1830, №4; О джарских и белоканских лезгинах. - «Русский инвалид», 1829, №19; Исторический взгляд на Карабахскую провинцию. Отрывок из путешествия по Закавказским провинциям. - «Тифлисские ведомости», 1830, №86; Статистический взгляд на провинцию Нахичеванскую. - «Тифлисские ведомости», 1831, №81; Провинция Талышинская. - ЖМВД, 1831, №5; П.Заблоцкий. Обозрение Талышинского ханства в медико-топографическом и статистическом отношении за 1836 г. – ЖМВД, 1837, №10,11; Статистические известия о Талышинском ханстве. – «Северная пчела», 1838, №140; Д.Зубарьев. Отрывок из путешествия по Закавказью в 1828-1830 гг… - «Северная пчела», 1840, №150, 255, 260, 266; Шуша. – «Московская ведомость», 1848, №37; М.М-цев. Краткий обзор Джаро-Белоканского округа. – «Закавказский вестник». 1850,№9;В..Борисов. Описание г.Шуши и его окрестностей. - «Москвитянин», 1851; Ф.А.Шнитников. Описание Кубинской провинции. 1832г. – ИГЭД, М., 1958; В.Н.Григорев. Статистическое описание Нахичеванской провинции. СПб., 1833; О.Евецкий. Статистическое описание Закавказского края… СПб., 1835; П.Зубов. Картина Кавказского края, принадлежащего России и сопредельных ему земель: в историческом, статистическом, этнографическом, финансовым и торговом отношениях. Ч.I-IV, СПб, 1834- 1835, Yenə onun: Обозрение Закавказского края в физическом, этнографическом и хозяйственном отношениях: - «Журнал-МГИ», ч.II, СПб., 1841: Д.Е.Зубарев. Поездка в Кахетию, Пшавию, Хевцурию и Джаро-Белоканскую область – «Русский вестник», т.II, СПб., 1841; Yenə onun. О народонаселении за Кавказом. «Русский вестник»,СПБ., ч.VI, 1842.

5. И.П.Петрушевский. Джаро-Белоканские вольные общества в первой трети XIX столетия. Махачкала, 1993, с.27.
6. Yenə orada. с.27-28.
7. А.К.Алекперов. У айрумов. – «Изв. ООИАз.», 1927, №5; həmçinin bax onun: Исследования по археологии и этнографии Азербайджана. Б.,1960, с.99.
8. Yenə orada.

## О НЕКОТОРЫХ ПУТАНИЦАХ РУССКОЙ СТАТИСТИКИ XIX ВЕКА К ЭТНОДЕМОГРАФИЧЕСКОМУ СОСТОЯНИЮ АЗЕРБАЙДЖАНА

**А.Н.МУСТАФАЕВ**

### АННОТАЦИЯ

Статья, написанная на основе статистических данных, посвящена критике некоторых искажений и путаниц, относительно отражения этнодемографического состояния населения Азербайджана в XIX веке. Раскрывается реакционная сущность колониальной политики царской администрации в области проведения как камеральных описаний, так и переписей национальных окраин России.